AZƏRBAYCAN SƏNAYE
KORPORASİYASI

ƏMR

№01-2019-037

"22" 05 2019 il

**"Azərbaycan Sənaye Korporasiyası" Açıq Səhmdar Cəmiyyətində Apellyasiya Şurasının yaradılması haqqında**

"Dövlətə məxsus olan hüquqi şəxslərdə apellyasiya şuralarının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 6 may 2019-cu il tarixli 681 nömrəli Fərmanına əsasən sahibkarlıq fəaliyyəti göstərən fiziki və hüquqi şəxslərin şikayətlərinə baxılmada şəffaflığın, obyektivliyin və operativliyin təmin edilməsi, bu sahədə şəxslərin hüquqlarının və qanunla qorunan maraqlarının müdafiəsi məqsədi ilə, qanunçuluq, şəffaflıq, kollegiallıq və qərəzsizlik prinsipləri əsasında "Azərbaycan Sənaye Korporasiyası" Açıq Səhmdar Cəmiyyətində (bundan sonra "ASK" ASC) Apellyasiya Şurası yaradılmalı və onun Əsasnaməsi təsdiq edilməlidir. Eyni zamanda, "ASK" ASC-nin Apellyasiya Şurasının fəaliyyəti haqqında məlumatların yayımlanması həyata keçirilməlidir.

Qeyd edilənləri nəzərə alaraq, sözügedən Fərmanın 4.1-ci bəndini və Azərbaycan Sənaye Korporasiyası" Açıq Səhmdar Cəmiyyətinin Nizamnaməsinin 6.4.1-ci və 6.4.5-ci yarımbəndlərini rəhbər tutaraq,

**əmr edirəm:**

1. "ASK" ASC-də aşağıdakı tərkibdə Apellyasiya Şurası yaradılsın:
- Baş direktorun müavini İsayev İlqar Veysəl oğlu – sədr;
- Maliyyə departamentinin direktoru Mehdiyev Fexri Vaqif oğlu – üzv;
- Hüquq departamentinin direktoru v.m.i.e. Quliyev Tural Ağababa oğlu – üzv;

– Aqrar istehsal və ticarət departamentinin direktoru Bayramov İlham Üzeyir oğlu – üzv;

– Korporativ xidmətlər departamentinin direktor müavini Aslanov Azad Ramiz oğlu – üzv;

– Strateji inkişaf və kommersiya departamentinin direktor müavini Teymurov Xaqan Aydın oğlu – üzv;

– Korporativ idarəetmə və müqavilələr şöbəsinin müdiri Nəsirzadə Nərgiz Fuad qızı – üzv.

**2.** Apellyasiya Şurasının Əsasnaməsi təsdiq edilsin (əlavə olunur).

**3.** "ASK" ASC-nin İnformasiya Texnologiyaları şöbəsinə tapşırılsın ki, Apellyasiya Şurasının fəaliyyəti haqqında məlumatların ask.gov.az internet saytında yayımlanmasını təmin etsin.

**4.** Ümumi şöbəyə tapşırılsın ki, "Azərbaycan Sənaye Korporasiyası" Açıq Səhmdar Cəmiyyətinin bütün aidiyyəti struktur bölmələrini və tabeliyində olan müəssisələrini bu Əmrlə və bu Əmrlə təsdiq edilmiş Əsasnamə ilə tanış etsin.

**5.** Əmrin icrasına nəzarəti öz üzərimdə saxlayıram.

**Baş direktor** **Kamran Nəbizadə**